**UOT 069**

***Aygün Bağırova***
***AMEA-nın İncəsənət və Memarlıq***
***İnstitutunun dissertantı***
***AZ 1143, Bakı, H.Cavid pr., 31***
***E-mail*: marvel666@mail.ru**

# AZƏRBAYCAN TELEVİZİYA KANALLARINDA MAARİFLƏNDİRİCİ VERİLİŞLƏRİN ƏHƏMİYYƏTİ

**Xülasə:** Müasir dövrdə ölkəmizdə maarifçilik ideyalarının geniş bir spektrdə yayılması prosesində televiziya kanallarımızın üzərinə böyük və məsuliyyətli bir iş düşür. Bu baxımdan Azərbaycan televiziyalarında hələ ilk dövrlərdən maarifçilik yönümündə böyük təbliğat aparılmışdır.

**Açar sözlər:** Azərbaycanın televiziyaları, maarifçilik ideyaları, televiziya verlişləri, maarifləndirici verlişlər, estetik zövq, intelektual səviyyə

Hər bir xalq öz tarixi mədəniyyəti ilə tanınır. Mədəniyyət - cəmiyyət və insanın inkişafının tarixən müəyyən səviyyəsidir. Azərbaycan mədəniyyəti tarixində həmişə xalqımızın musiqiyə, rəssamlığa, teatra və incəsənətin digər növlərinə olan marağı diqqət mərkəzində durur.

Azərbaycan televiziyasını xalqın milli sərvəti adlandıran Ulu Öndər H.Əliyev ölkəmizdə gedən ictimai - siyasi proseslərdə onun rolunu yüksək qiymətləndirirdi.Heydər Əliyev incəsənətimizə istər mənəvi, istərsə də maddi baxımdan həmişə üstünlük vermiş, diqqət mərkəzində saxlamışdır. O, demişdir: "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir. Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir. Ədəbiyyatımızın, incəsənətimizin, mədəniyyətimizin ən böyük fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, zaman-zaman istedadlı insanlar mədəniyyətimizdə yeni yollar, yeni cığırlar açırlar, yeni formalar meydana gətirirlər. Azərbaycan mədəniyyəti öz milliliyini saxlayaraq, bu zəmin əsasında klassik mədəniyyət səviyyəsinə gəlib çatmışdır. Xalqımız zəngin mədəniyyətə malikdir."[1, səh-87]

Milli-mənəvi dəyərlərimizin təbliğində televiziya böyük əhəmiyyətə malikdir. Respublikanın bu gününü, dövlətimizin tutduğu mövqeyi, Azərbaycan həqiqətlərini həm ölkə daxilində, həm də dünyada dolğunluğu ilə yayan Azərbaycan televiziyasının xidmətləri əvəzolunmazdır.

Azərbaycan televiziyasında aparılan əsaslı yenidənqurma kanaldakı verilişlərin mahiyyətinə, məzmun və formatına da müsbət təsir göstərmişdir. Demək olar ki, bütün kanallarda rəngarəng proqram və verilişlər tamaşaçıların zövqünü formalaşdırır, onları maarifləndirir.

Ədəbi maarifçilik verilişləri həm də eyni zamanda maarifçi-tədris funksiyasını da yerinə yetirir. Maarifçilik verilişlərinin ekran təcəssümü kifayət qədər ciddi və əhəmiyyətlidir. Yayımı həyata keçirən veriliş yaradıcıları tamaşaçının zövqünü və sosial sifarişini dəyərləndirməklə onun istəyinə uyğun, günün

dinamik dəyişkənliyə uyarlı bir tərzdə təqdimatına çalışma işini tənzimləməlidir. Ədəbi-dram verilişləri digər verilişlər kimi cəmiyyətdə, televiziyada özünə yer alaraq maarifləndirmə əhəmiyyətliliyi ilə seçilir.

Maarifçilik verilişləri cəmiyyətimizdə bilik, savad və mədəniyyəti sistemli şəkildə təbliğ edən, estetik, etik, ictimai və bədii ideyaları formalaşdıran verilişlərdir. Bu verilişlərdə mütərəqqi ideyalar insanın bütün hisslərinə, şüuruna, dünyagörüşünə emosional cəhətdən güclü təsir edir, onları qabaqcıl ideyalarla silahlandırır, xarakter və əqidələrini formalaşdırır, insanlara həyatı real surətdə dərk etmək və dəyişdirmək yollarını öyrədir. Hər bir maarifpərvər veriliş insanların estetik təfəkkürünü yüksəldir, əxlaqi və mənəvi cəhətdən tərbiyə edir, kamilləşdirir.

Maarifçilik mövzulu verilişlər müasir informasiya cəmiyyətində mənəvi sərvətləri translyasiya edir və geniş tamaşaçı kütləsi arasında yayır. Ümumiyyətlə isə, "müasirlik həm ideya-bədii, həm də zaman anlayışı mənasında geniş estetik kateqoriyadır".[2,səh-148] Maarifçilik televiziya verilişləri televiziyanın rəngarəng verilişlər şəbəkəsinə özündə elm, təhsil, təlim və tərbiyə sahələrini əhatə edən müstəqil bir proqram bloku kimi daxil olur. Əgər bu tipli verilişləri və proqramları məzmun baxımından izah etsək, məlum olur ki, televiziyanın intellektual səviyyəsi məhz maarifçilik verilişlərinin üzərinə düşür.

Təəssüf ki, bəzi kanallarda təqdim olunan verilişlərin əksəriyyətində maarifləndirmə, jurnalist araşdırmaları, hazırlanan verilişlərin hamısı müasir tələblərə cavab vermir. Kanallar öz fəaliyyətini reklam cəlbetmə istiqamətində yox, əhalini düşündürən, cəmiyyət üçün aktual olan mövzuların işıqlandırılmasına, Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti, xalqımızın adət-ənənələri, mənəvi dəyərlərimizin təbliğinə yönəltməlidirlər. Maarifləndirmə xarakterli proqramlarda biznes maraqları üstünlük təşkil etməməli, daha çox maraqlı verilişlərlə tamaşaçı auditoriyasının rəğbətinin qazanılması qarşıya məqsəd qoyulmalıdır. Televiziya təkcə informasiya vermək və yaxud əyləndirməklə işini bitmiş hesab etməməlidir. O, həmçinin tamaşaçısını düşündürməyi, istiqamətləndirməyi bacarmalıdır.

Əks halda, hər bir tamaşaçı başqa kanalda daha maraqlı veriliş axtarışına çıxa bilər. Biz hər hansı maarifçilik verilişinə baxmaqla cüzi də olsa maariflənməliyik. Hər verilişdən nə isə götürməliyik, nə isə öyrənməliyik. Bu məsuliyyət Azərbaycanda hal-hazırda müxtəlif kanallarda nümayiş etdirilən ədəbi-maarifçilik mövzusunda olan verilişlərin üzərinə düşür. Yaşadığımız həyatda nə isə öyrənə biliriksə, nəyə isə baxıb maarifləniriksə məhz buna görə televiziya kanallarımızda gedən maarifçilik mövzulu verilişlərə borclu olmalıyıq. Bu verilişlər fıkir və düşüncələrimizi, estetik zövqümüzü inkişaf etdirir, eyni zamanda mədəni tərbiyə funksiyalarını yerinə yetirir. Bu verilişlər cəmiyyətdə insanların mənəvi inkişafında yeni mərhələni təşkil etməklə yanaşı, xalqın arzu və diləklərini dolğun əks etdirir, insanları mənəvi saflıq ruhunda tərbiyə edir. Beləliklə, gənclərin hərtərəfli inkişafına kömək edən, ümumbəşəri duyğuları aşılayan, vətəndaşlıq, yüksək ideyalılıq ruhunda tərbiyələndirə bilən incəsənət nümunələrinin yaradılmasının böyük tarixi əhəmiyyəti vardır. Belə ki, bu verilişlər yalnız ideyaca deyil, üslub xüsusiyyətləri ilə də gənclərin estetik tələbatına cavab verməlidir.

Azərbaycanın əksər telekanallarında maarifləndirmə xarakterli verilişlərin sayının az olması, bəzi kanallarda isə ümumiyyətlə, olmaması ciddi narahatlıq doğurmaqdadır. Dəfələrlə dövlət rəsmiləri, əsas etibarilə özəl telekanalları bayağı, şit verilişlər hazırlayıb efirə verməkdə ittiham ediblər. Məsələ yüksək tribunalarda müzakirəyə çıxarılıb, telekanallara məsləhət xarakterli göstərişlər verilib. Amma hələ də biz qınaqların, məsləhətlərin nəticəsini görmürük. Əksinə bu sahədə vəziyyət daha da pisləşməkdədir. Niyə maarifçilik verilişlərinin sayı az, səviyyəsi isə aşağıdır? Media üzrə ekspert, professor Qulu Məhərrəmli bildirir ki, «Təəssüf ki, bizim telekanallar bu tendensiyanı görmürlər.Sovet dövründə telekanallar əsasən təbliğata və təşviqata üstünlük verirdilərsə, bu gün informasiya və əyləncəyə üstünlük verirlər. Hər iki quruluşda maarifçilik məsələsi yaddan çıxıb." Q.Məhərrəmli hesab edir ki, telekanallarda peşəkarların sayını artırmaqla, rəqabət mühitini formalaşdırmaqla daha keyfiyyətli verilişləri hazırlayıb ortaya çıxarmaq mümkündür: «Telekanallar bəlli çərçivələrdə fəaliyyət göstərirlər. Sizin kimi mən də çoxistəyərdim ki, hər axşam evə gedəndə xarici telekanallara deyil, öz telekanallarımıza baxım». [3,səh-128]

Ədəbi-maarifçilik verilişləri geniş auditoriyaya malikdir. O, nəinki operativ məlumat mənbəyidir, həmçinin hərtərəfli maarif, təhsil və tərbiyənin ən mədəni vasitəsidir. Maarifçilik mövzulu verilişlər uşaq, gənclərdən ibarət auditoriyaya ünvanlanaraq, hal-hazırda bir çox kanallarda ikinci dərəcəli əhəmiyyət kəsb edir. Sosial cəhətdən daha az müdafiə olunan təbəqələr üçün nəzərdə tutulmuş maarifçilik verilişləri nə kanal sahiblərinin, nədə reklam verənlərin marağını çəkmir. Qeyd edək ki, televiziya mədəniyyət və elm sahəsində maarifçiliyin bütün növlərini sintez etməyə qadir universal vasitədir. Bu gün maarifləndirmək deyəndə ilk növbədə uşaq və gənclərin əqli maraqlarınm fəallaşdırılmasına şərait yaradılması, nitqin düzgün inkişafı, və s. nəzərdə tutulur.

İctimai kanalda nümayiş olunan bir neçə maarifləndirici verilişləri qeyd etmək istərdim. Ölkəmizdə və dünyada təhsildə qazanılan uğurlar, baş verən dəyişikliklər, qanunlar, problemlər və. s.

haqqında söhbət açılan "Açıq dərs" verilişində ekspertlərin və auditoriyanın fikirləri tamaşaçılara təqdim olunur. Biri var imiş, biri yox imiş"verilişi kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulub. Uşaqlara maraqlı məlumatlar, nağıllar, hekayələr danışılır."Salam, Əsgər!" verilişi ölkəmizin ərazi bütövlüyünün qorunması, sərhədlərdə mühafizə tədbirləri, ordunun gücü, əsgərin döyüş hazırlığı, müasir silahlar və ondan istifadə bacarığı ilə bağlı hərbi vətənpərvərlik proqramı tamaşaçılara təqdim olunur. Valideynlər üçün isə təlim, tərbiyə ilə bağlı maarifləndirici bir proqram olan "Addım Addım" verilişində uşaq psixologiyası, məktəbəqədər uşaqların tərbiyəsi, məktəbdə müəllim –şagird münasibətləri və bu kimi sosial və psixoloji mövzular ətrafında söhbətlər aparılır. Mütəxəssislərin fikirləri dinlənilir.

Kütlələrin maarifləndirərkən televiziya hər şeydən əvvəl bu problemin əsas tərkib hissəsini müəyyənləşdirməlidir. Yəni onun maarifçilik roluna yararlı olub, olmaması.. Əslində mədəni-maarif verilişləri ardıcıllıq deyil, elm, incəsənət və mədəniyyətin müntəxabatıdır. Eyni zamanda hazırlanan bu tipli verilişlər tamaşaçının mənəvi dünyasının və mədəni dünyagörüşünün zənginləşdirilməsi və inkişafında böyük rol oynayır. Ədəbi-maarifçilik mövzulu verilişlərin əsasında cəmiyyətin, insanların bütün mənəvi tələbatlarını ödəmək cəhdi durur. Maarifçi verilişləri yaradanlar onların aktual olmasına, çağdaş elmi-bilik bilgilərlə dayanmasında, bu və ya digər sahələrin mütəxəssislərinə istinad etməsinə çalışmalıdırlar. Bu verilişlərin öz dramaturgiyası olmalıdır. Bu verilişlər ardıcıllıq prinsipinə uyğun qurulmalıdır. Ədəbi maarifçilik verilişlərinin mövzusu müxtəlif olmalıdır. İctimai inkişaf tələblərinə, dövrün xüsusiyyətinə, tamaşaçı ehtiyacına uyğun olmalıdır. Hazırlanan verilişin estetik inkişafı şəxsiyyətin formalaşmasının mühüm cəhətidir. Ümumiyyətlə, istər maarifçilik, istərsə də "sənədli televiziya tamaşaları yüksək bədii dəyəri ilə yanaşı, analitik publisistika baxımından müəyyən dövrü təhlil edir və eyni zamanda maarifləndirmə yükü daşıyır".[4,səh-77] Çox acınacaqlı haldır ki, kanallarımızda maarifçiliklə bağlı proqramlar azlıq təşkil edir. Halbuki televizlyanm funksiyalarından biri dəmaarifləndirmədir. Televiziya verilişləri mahiyyətcə şəxsiyyətin və cəmiyyətin hərtərəfli inkişafına yönəldilmişdir. Bu gün milli televiziya sistemində tamaşaçıları narahat edən problemlərin çoxu teleetika və teleestetika normalarının pozulması ilə bağlıdır. Ədəbi-dram verilişləri həm də həyat gerçəkliyini, reallığı göstərməklə, tamaşaçını hadisə ilə tanış etməklə bərabər, mədəni-maarif işini öz üzərinə götürür.

Son illər maarifləndirmə xarakterli verilişlərdən olan televiziya tamaşaları heç bir kanalda yoxdur. Qeyd etmək istərdim ki, televiziya tamaşalarının çox böyük əhəmiyyəti var. Televiziya tamaşaları əslində özü-özlüyündə insanları maarifləndirmək xüsusiyyətini daşıyır. Rejissor Rauf Kazımovskinin 1956-cı ilin iyulunda ekran quruluşu verdiyi Nəriman Nərimanovun "Şamdan bəy" əsərindən bir neçə epizod ilə televiziya tamaşalarının bünövrəsi qoyuldu.Sonralar müxtəlif illərdə Ramiz Həsənoğlu Anarın «Ötən ilin son gecəsi», «Mən, sən, o və telefon», «Dindirir əsr bizi",Ruhəngiz Qasımovanın «Yollar kəsişəndə», Rauf və Zəminə Hacıyevlərin «Ordan-burdan», Anarın «Evləri köndələn yar», Vaqif Səmədoğlunun «Yaşıl eynəkli adam» , Tariyel Vəliyevin Aslan Qəhrəmanovun əsərləri əsasında çəkdiyi «Səni axtarıram», «Bağışla», «Səndən xəbərsiz» tamaşa-serialı və s. əsərlərə bu gün də tamaşaçılar böyük maraq göstərir.Təəssüf ki, insanların estetik zövqlərinin inkişaf etdirilməsində son dərəcə əhəmiyyəti olan televiziya tamaşaları bu gün heç bir kanalda mövcud deyil.

Gənclərin estetik mədəniyyətə yiyələnmələri isə müasir dövrün ən aktual problemlərindəndir. Estetik mədəniyyət dedikdə, insanların gerçəkliyi dərk etməsi prosesində istifadə etdikləri estetik vasitələr və estetik biliklər sistemi nəzərdə tutulur. Estetik fəaliyyət – estetik zövqlə yaşamaq, yaratmaq deməkdir. Estetik zövqün tərbiyəsində ədəbiyyat və incəsənət əsərlərinin əhəmiyyəti misilsizdir. Ədəbiyyat və incəsənət əsərləri insan psixologiyasının ən dərin , ən incə sahələrinə nüfuz edir, milyonlarla insanların mənəvi simasını formalaşdırır, onları bir-birinə yaxınlaşdırır və ideyaca daha da zənginləşdirir.

Maarifçi verilişlər televiziyanın mühüm fəaliyyət istiqamətlərindən biridir. Bu verilişlər elmi bilikləri yaymaqla və kütləviləşdirməklə məşğuldur. Maarifçilik verilişlərindən AZTV-də "Bizim Planet", "Mən Azərbaycanlıyam", "Əlaçı "-intelektual oyunları, "Azərbaycan tarixi", "Bağçılıq", Lider kanalında "Azərbaycan estdrada tarixi", "Bakımız", "Sağlam nəsil", Space kanalında "Bizim həkim", Çarə"," Siqnal", Atv kanalında "Qanunla biz", "Həkimsən" və s kimi verilişləri misal gətirə bilərik.

Yüksək mədəni səviyyəyə malik xalqımızın bədii estetik tələbləri xeyli artmışdır. Müasir tamaşaçılar indi çox tələbkar olmuşlar. Onları məzmunca dayaz, formaca sönük verilişlər bu gün daha təmin etmir. Təəssüflə qeyd etməliyik ki, bəzi rejissorlarımız tərəfindən zəif, sxematik, məzmunca dayaz verilişlər hazırlanır. Bəzi rejissorlar dövrümüz üçün səciyyəvi olan hadisələrə diqqət yetirmir, hazırladıqları verilişlərin bədii keyfiyyətlərinə, materialın seçilməsinə və tənziminə, yığcamlığına, dil və ifadə səlisliyinə az fikir verirlər. Çox vaxt mövzu təkrar olunur, əhvalatçılıq, uzunçuluq kimi nöqsanlara yol verilir. Həqiqətdən uzaqlaşan müəlliflər, rejissorlar verilişlərin ictimai mənasına əhəmiyyət vermirlər.Təbii ki, bu fikirlər bütün rejissorlara şamil deyil.Son dövrlərdə bir çox rejissorların hazırlayıb, ərsəyə çıxartdıqları verilişlərdə cəmiyyət və şəxsiyyət problemi, onların qarşılıqlı əlaqəsi, insan

psixologiyasına xas olan ziddiyyətlərin mənəvi çarpışmalar yolu və açılması tamaşaçıların diqqətini daha çox cəlb edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan televiziyası ilə bağlı bir fikrini nəzərinizə çatdırmaq istərdim:

"Azərbaycan radio və televiziyası məhsuldar və şərəfli inkişaf yolu keçmişdir. Milli radio və televiziyamız fəaliyyət göstərdiyi bütün dövrlərdə Azərbaycan ədəbi dilinin yaranması və inkişafında, xalqımızın maariflənməsində, milli mədəniyyətimizin, ədəbiyyatımızın təbliğində, dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyalarının yayılmasında əvəzsiz rol oynamışdır".[5, səh-94]

Bu gün televiziya kanallarında bütün verilişlər maarifləndirməyə xidmət etməlidir.Çünki telekanalın əsas missiyası maarifləndirmək, dövlətçilik və ictimai maraqlara xidmət etmək, bir sözlə, ictimaiyyətin televiziyası olmaqdan ibarətdir.

**Ədəbiyyat:**


1. Heydər Əliyev: dövlət xalq üçündür: kəlamlar, sitatlar, aforizmlər, Bakı, 2008. səh-87
2. Salmanov Ş. Müasirlik mövqeyindən. Yazıçı-Bakı-1982-ci il, səh-148.
3. Məhərrəmov Q. Televiziya nitqi və ədəbi tələffüz. İzahlı lüğət. Bakı; "Təhsil", 1999–128 s
4. Məhərrəmov Q., Dadaşov A. Televiziya və radio tamaşalan. Bakı-1999-cu il, səh-77.
5. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanası – Seçilmiş fikirlər"Mədəniyyət haqqında", səh-94


**Айгюн БагироваРоль научно-просветительских передач на национальных аребайджанских каналах**

**Резюме**


В данной статье автор исследует телевизионную продукцию и их концепции вещания на местных телеканалах. Исследователь особо подчеркивает роль и возможности вещающих студий впроцессе развития новых образовательных идей в современном социуме.



**Ключевые слова:** телевизор, просветительные идеи, телевизионное вещание, образовательные и развлекательные программы, эстетическое удовольствие, интеллектуальный уровень.


**Aygun BaqirovaThe role of scientific and educational programs on national TV channels**

**Summary**


In this article, the author examines television products and their concepts of broadcasting on local TV channels. The researcher emphasizes the role and possibilities of broadcasting studios in the process of developing new educational ideas in the modern society.



**Keywords:** television, educational ideas, television broadcasting, educational and entertaining programs, aesthetic pleasure, intellectual level.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 09.10.2017 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 16.10.2017Məqalənin çapa qəbul olunma tarixi: 18.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: professor Amin Novruzov ADMİU-nun ElmiŞurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**